# İNSTİTUT TARİXİNDƏ GÖRÜNMƏMİŞ TƏLƏBƏ

## (Şıxəli Qurbanovun institutda təhsil aldığı 1947-1951-ci illərə aid xatirələr)

**1947-1951-ci illərdə Şıxəli Qurbanovla APİ-də təhsil alarkən yaddaşımda qalan bir neçə xatirəni şair dostlarıma danışdım. Şair-tərcüməçi Həmzəli İlyaslı, şairlərdən Vahid Coşğun, Paşa Əyyub, Ayaz Arabaçı, naşir-publisist Süleyman Mustafaoğlu və başqaları həmin xatirələri qələmə almağı məsləhət gördülər. Allahı çağırıb qələmi götürdüm. Zənnimcə oxucuların marağına səbəb olar.**

### BİRİNCİ YARPAQ

Mən həmin illərdə Bakı Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində təhsil alarkən Şıxəli Qurbanovla tələbə yoldaşı olmuşam. Kursumuzun patokunda 120 nəfərə qədər tələbə vardı. Mən də Şıxəli Qurbanovla birlikdə "A" qrupunun tələbəsi idim. Buna görə də onun bütün tələbəlik illərində davranışının, suallara verdiyi cavabların şahidi olmuşam.

O zaman institutda dərs deyən bütün müəllimlər danışırdılar ki, bu institut Şıxəli kimi bilikli, istedadlı tələbə görməmişdir. Mən açığını deyim ki, tələbəlik illərində müəllimlərdən çox Şıxəlidən çox şeylər öyrənmişəm. Sanki iki institut bitirmişəm. Biri pedaqoji, digəri isə "Şıxəli institutu". İkinci institut bəlkə də mənə daha çox lazım olub!..

Kursun jurnallarında adlarımız yanaşı idi: Qurbanov, Qasanov dalbadal idi. Ona görə də Şıxəlinin bütün imtahanlara cavabı gözümün önündə olub. O, cavab verərkən mən fikirləşmə masasında olmuşam. Onun arxasınca mən cavab verməli olurdum. III kursda bir dəfə ona dedim:

- Şıxəli, sizinlə eyni vaxtı imtahan verdiyimə görə tam əlaçı ola bilmədim.

- Nəyə görə? - deyə məndən təəccüblə və təkidlə soruşdu. Dedim:

- Siz suallara cavab verdikdən sonra müəllimin hüzuruna gələn mən oluram. Nə qədər yaxşı cavab versəm də siz səviyyədə danışa bilmirəm. Müəllimlər mənə qiymət yazarkən yəqin ki, belə fikirləşirlər: "Ona da "5" verim, buna da?!" Odur ki, mənə ya "4", ya da "3" verirlər.

Şıxəli diqqətlə dinlədikdən sonra mənə dedi:

- Bəs bunu indiyəcən niyə mənə deməmisən?

- Axı bunu yenicə başa düşmüşəm. Yaxşı, eləsə bu gündən qrup qurtarandan sonra imtahana girərəm. Amma gərək "5" alasan, oldumu?

- Oldu!

7-ci semestrdə cəmi iki imtahanımız vardı: "Dil tarixi" (professor Dəmirçizadə) və "Siyasi iqtisad" (Sosializm dövrü).

İş elə gətirdi ki, hər iki imtahandan doğrudan da "5" aldım. Zaçot kitabımı Ş.Qurbanova göstərdim. Baxıb dedi:

- Mən nə qədər günaha batmışam.

### İKİNCİ YARPAQ

Şıxəlinin bütün istedadı seminarlarda və imtahanlarda üzə çıxırdı. Bunu bütün institut tələbələri, müəllimləri etiraf edirdi. 3-cü kursda olarkən onu Zaqafqaziya tələbələrinin Tibilisi şəhərində keçirilən müşavirəsinə göndərmişdilər. Orada bütün müşavirə iştirakçıları onun çıxışlarına (rusca) heyran qalırlar. Müəllimlərdən kimsə deyir:

- Azərbaycan elmlər namizədini tələbə adı ilə bizə sırıyıb!..

- Siz nə danışırsınız, mən həqiqətən tələbəyəm. Yaşım sizi aldatmasın, 5 il hərbidə, Baltikflotunda matros olmuşam.

- Biletinizi göstərə bilərsinizmi?!

- Üstümdə deyil. Bakıda evimdədir. Bu gecə gələn qatarla gətirdə bilərəm.

Doğrudan da o, evlə (artıq evli idi) danışır ki, tələbə biletimi 8-ci vaqonun bələdçisinə verin, gətirsin

Səhəri gün o, qatarın qarşısına çıxır və tələbə biletini gətirib şəkk edənlərə göstərir.

### ÜÇÜNCÜ YARPAQ

Bir dəfə fakültənin dekanı Sədi Əfəndiyevə dedi:

- Sədi müəllim, fakültənin divar qəzeti niyə vurulmayıb?

- Qəzet hazırdı, yazılıb, lakin rəsam Çingiz valeybol yarışındadır. Qəzetin başlığı hələ yazılmayıb. Gərək o gəlsin.

- Mən xahiş edirəm nömrəni asasınız.

- Dedim ki, başlığı yoxdur, inanmırsız?!

- İnanıram, ancaq gətirin asın, o iş mənim boynuma

Sədi müəllim kabinetindən qəzeti gətirib ona göstərdi. Şıxəli isə:

- Asın! - deyə israr etdi. Dekanımız başlığı ağappaq olan divar qəzetini həmişəki yerindən asdı. Şıxəli qəzet asılan yerə yaxınlaşdı. Əlində gəzdirdiyi rəngli qələmlərdən birini sağ əlinə alıb, divardan bir addım aralandı. Başlığın sol küncündə Leninin, sağ küncündə isə Stalinin şəkillərini, ortada isə Kremlin saatlı şəklini çəkdi. Karandaşını cibinə qoyub öz kabinetinə tərəf addımladı. Hamı təəccüb içində qaldı. Şəkillər necə də oxşadılmışdı.

### DÖRDÜNCÜ YARPAQ

Ayağından əlilliyinə görə Şıxəli bədən tərbiyəsi dərslərindən azad edilmişdi. Buna baxmayaraq gəlib məşğələlərimizə baxırdı. Dərslər çox zaman institutun yaxınlığında olan stadionda keçirdi. Bir dəfə 100 metrə qaçış vaxtı Şıxəli gəlib baxırdı. Müəllimimiz rus idi, qaçmaq üzrə respublika çempionu idi. Şıxəli ona dedi:

- Gəl sporla qaçaq, görək kim ötəcək. Müəllim dedi:

- Şıxəli, mən qaçmaq üzrə respublika çempionuyam. Bacarmazsınız!..

- Saatınızı açın, - dedi və öz saatını açıb mənə verdi. "Çempion" da saatını açıb girov qoydu. Start vəziyyəti aldılar. Kimsə komanda verdi. Qaçdılar, əvvəlcə çempion irəlidə idi. 50, ya 60-cı metrədə Şıxəli onu keçdi. Axıra qədər irəlidə getdi. Bəsləşmə qurtardı. "Çempion" məğlub olduğuna görə saatını götürmək istəmirdi. Şıxəli güc-bəla ilə onu öz saatını almağa məcbur etdi

Şıxəli Qurbanov iki dəfə MK tərəfindən cəzalandırılmışdı. Bunun biri onun tələbəlik illərində oldu. Belə ki, o, institut komsomol təşkilatının katibi olanda büronun qərarı ilə bir neçə tələbə qıza töşmət vermişdi. Həmin qızların biri atası Mərkəzi Komitədə işləyən rus qızı idi. Onun atasının təkidi ilə Ş.Qurbanovun katiblikdən çıxarmalı oldular. Bu haqsızlıq müəllim və tələbələrə çox pis təsir etdi. MK-nın acığına həmin Ş.Qurbanov institutun tələbə həmkarlar təşkilatının sədri seçildi və institutu bitirənə qədər bu vəzifədə şərəflə işlədi. Onun təşəbbüsü ilə kasıb ailədən olan tələbələr "Qafqaz" restoranında gündə bir dəfə pulsuz yemək yeyirdi. Yazı ləvazimatı sarıdan da köməklik edilirdi.



O, "A" qrupunun tələbələrinə xüsusi qayğı göstərir, onları lazım olanda müdafiə edirdi. Bir dəfə mən Ədəbiyyat nəzəriyyəsindən imtahan verən gün - qiymətini alıb getmək istəyərkən müəllimə A.İsmayılova ondan xahiş etdi ki, Şıxəli, getmə, o biri tələbələrin cavablarına qulaq as.  O, razılaşdı və əyləşdi. Növbə mənimki idi. Sualların üçünə də yaxşı cavab verdim.

Müəllim "zaçot" kitabında mənə "əla" qiymət yazdı və sonra dedi ki, - Səhv elədim, sən gündəlikdə məndən "2" almışdın. Sənə "5" verməк olmaz. Şıxəli gördü ki, müəllim nəsə qaralama aparmaq istəyir, cəld əlini uzadıb onun qabağındakı "zaçot" kitabımı götürdü:

- Müəllimə, xahiş edirəm bu qiymətə əl vurmayasınız. Ələddinin cavabı həqiqətən "5"-ə layiq idi. Gündəlikdə "2" alandan sonra bundan nəticə çıxarıb, dərsinizə möhkəm hazırlaşıb. Buk i, əlaya layiq işdir?!

A.İsmayılova gülə-gülə ver zaçotkaya imza atım - dedi. Sonra da onu imzalayıb mənə qaytardı!..

Tənəffüslərin birində məndən soruşdu: - Sən Boyniçin "Ovod" romanını oxumusan? Mən:

- Yox! - deyə cavab verdim.

- Çox təəssüf! Sən onu mütləq oxumalısan. Bax soruşacam ha!..

Həmin kitabı tapıb oxudum. Və dostuma təşəkkür edib dedim:

- Əvəzsiz romandır. Bizdə niyə belə əsərlər yazılmır?

- Vaxt gələcək yazılacaq. Tələsmə

### BEŞİNCİ YARPAQ

Dövlət imtahanımız "Açıq qapı" prinsipi ilə (qaydası ilə) keçirdi. Bütün fakültələrin tələbələri akt zalında keçən imtahanımıza baxmağa, Şıxəlinin cavablarına qulaq asmağa gəlirdilər. Zal ağzına qədər dolu olurdu.

İmtahan ərəfəsində bütün kafedralar Ş.Qurbanovu öz ixtisasları üzrə aspiranturaya dəvət edirdilər. Mən ondan soruşdum ki, hansı sahədə qalmaq fikrindəsiniz? O, təəccüblə üzümə baxıb:

- Sən hansını məsləhət görürsən?

Dedim:

- Yalnız ədəbiyyat üzrə qalmağınızı məsləhət görərdim.

- Mən də yalnız və yalnız ədəbiyyat üzrə qalmağa qərar vermişəm

Dediyi kimi də elədi, Ədəbiyyat ixtisasını seçdi və XIX əsr Azərbaycan və rus əvəbi əlaqələri mövzusunda dissertasiya müdafiə edərək, filoloji elmlər namizədi adını aldı. Yaradıcılıqla məşğul olmağa başladı.

Nizami adına Ədəbiyyat institutunda işləyərkən dəfələrlə məni ismarladı ki, gəl kiçik elmi işçi yerində işlə. Mənsə artıq evlənmişdim. Balaca uşaqlarım olmuşdu. Kirayə evində çətinlik çəkərdim - deyə, o işə gələ bilmədim.

- Adə, tezliklə müdafiə edərsən, keçərsən institutda işləməyə!..

Bir sözlə, ailə vəziyyətimə görə Bakıya qayıda bilmədim. Qaldım rayonda.

***

Sonralar Ş.Qurbayonv iki dəfə AKP-nin Mərkəzi Komitəsində işlədi. Həmin dövrdə Qazağa da gəlmişdi. Tbilisidən yığıncaqdan birbaşa Qazağa gəldi. Gürcüstan KP MK-nın ideoloji işə baxan katibi də onu Qazağa qədər müşaiət etmişdi.

O, Qazağa gələn günü Qazax rayon Partiya Komitəsinin büro iclası gedirdi. Mən raykomda 8 ay idi ki, təlimatçı işləyirdim. Büroya girməmişdim. Raykomun bağında qəfil Şıxəli Qurbanovla və onun gürcü qonağı ilə qarşılaşdım. Görüşdük, katibləri soruşdu. Dedim ki, zalda büro iclası gedir, hamısı oradadırlar.

- Sən burada neyləyirsən?

- Mən də burada təlimatçı

- Onda onlara xəbər verə bilərsənmi ki, biz gəlmişik.

- Bu dəqiqə, dedim və iclas zalına daxil olub xəbəri çatdırdım. Daha dostuma demədim ki, bu iclasda məni çıxarıb təhsil şöbəsinə metodist göndərməyi qərara aldıqlarına görə acıq edib iclasa girməmişəm.

I katib İmran Məmmədov çıxıb hər iki katiblə görüşdü. Az sonra katibin yanında mənə dedi:

- Ələddin, gözlərində sual var. Elə bil nəsə mənə demək istəyirsən?!

- Heç nə təmənnam yoxdur, - deyə bildirdim.

### ALTINCI YARPAQ

Həmin gəlişdə Şıxəli görür ki, məktəbli uşaqlar ağaca gilənarı sapaqlı-sapaqlı bağlayıb satırlar. Dostum maşını saxlayıb uşaqların birindən soruşur:

- Balaca, bunu neçəyə verirsən?

- Sizə peşkəşdi, - deyə uşaq pul söhbəti salmadan uzaqlaşır.

Şıxəli Qurbanov katibə deyir ki, - o uşağın səxavəti mənə çox xoş gəldi. Gürcü qonağına üzünü tutub deyir ki:

- Bu, bizim millətin uşağıdır. Uşaq olsa da irsən qonaqpərvərdi. Yoldaş katib, mən xahiş edirəm o uşağın kim olduğunu öyrənəsiniz. Şəxsən mənim təşəkkürümü onun ailəsinə çatdırasınız!..

Aydındır ki, tələbə yoldaşımın xahişinə əməl olundu. Onun razılığı ailəyə çatdırıldı.

### YEDDİNCİ YARPAQ

Şıxəli Qurbanov MK-da hələ katib olmamış, təbliğat şöbəsinin müdiri olanda Novruzu "Bahar bayramı" keçirməyi lazım biləndə Qazaxda stadionda keçirdiyimiz Bahar bayramı uzun müddət qazaxlıların söhbət mövzusu olmuşdu. Bir tərəfdə nəhrə çalxanır, bir tərəfdə sacda bişirilən fəsəli qonaqlara paylanır. Şəxsən həmin fəsəlidən Bakıdan gələn qonaqların cərgəsinə bu sətirlərin müəllifi təqdim etmişdir. Həmin cərgədə qonaqlar içində xalq yazıçısı İsmayıl və Şıxəli də var idi

***

Şıxəli Qurbanovun vəzifə və yaradıcılıq uğurlarına nəinki mən bir dost kimi sevinirdim, hətta bütün Azərbaycan sevinirdi. Onun vaxtsız və demək olar ki, müəmmalı ölümü sinələrə dağ çəkdi. Analar ağı deyib dizlərinə döydülər. Onu məni qədər tanıyanlar isə ömrü boyu təəssüflə o böyük şəxsiyyəti unuda bilmədilər.

Tənəffüslərdə Şıxəlinin özünə məxsus yumorla söylədiyi lətifələr ömrüm boyu yadımdan çıxmayıb və çıxmaz.

"Sənsiz" pyesinin nümunə tamaşasına getməyə tələsən müəllifin ölüm xəbəri xalqımızı, ən çox da onun dostlarını sarsıtdı.

Bu dahi şəxsiyyətin barəsində çox-çox memuarlar yazılmalı, onun əsərləri həmişə nəşr edilməli, pyesləri oynanılmalıdır. Və fürsətdən istifadə edib Ş.Qurbanova həsr etdiyim bir şeiri oxuculara təqdim edirəm.

### ŞIXƏLİMİZ

**Haqqdan yanan bir ocağın**
**Od-közüydü Şıxəlimiz!**
**Xalqın deyə bilmədiyi**
**Haqq sözüydü Şıxəlimiz!**

**İnsanlıqda birinciydi,**
**Həm ləliydi, bir inciydi,**
**Məktəbin həm sevinciydi,**
**Həm gözüydü Şıxəlimiz!**

**Bəd fikirdən azad idi,**
**Hər cür yamana yad idi,**
**Bənzərsiz istedad idi,**
**Sırf özüydü Şıxəlimiz!**

**Ay İncəli, dinsin sazın,**
**Fəxiriydi de, oğul-qızın,**
**Doğmasıydı xalqımızın,**
**Əziziydi Şıxəlimiz!**



**Ələddin İNCƏLİ,**
**AYB-nin üzvü,**
**Prezident təqaüdçüsü**